Masallı rayonunun tarixi abidələrindən biri Mahmud qalasıdır. Rayonun Mahmudavar kəndində yerləşmiş bu qala orta əsr abidəsi hesab olunur. Mahmud qalası haqqında mətbuatda ilk dəfə 1965-ci ildə tədqiqatçı-tarixçi Əbdülrza Əhmədov çıxış etmişdir. Əbdülrza Əhmədova istinad edən tədqiqatçı-tarixçi Musarza Mirzəyev yazır: "İndi xarabalıqları görünən Mahmud qalası orta əsrdə tikilmişdir. Ümumi sahəsi 3-4 hektar olan bu qala 4-5 metr hündürlüyündə, torpaq divardan və qala ətrafı xəndəkdən ibarətdir. Xəndəyin bəzi yerlərinin eni 3-4 metrdən çoxdur. Düşməndən qorunmaq asan olsun deyə qalanın ətrafındakı xəndək su ilə doldurularmış" (Mahmudavar. B., 1997, səh.12-13).

Mahmud qalasının tarixini öyrənmək məqsədi ilə 1989-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun arxeoloqları Mahmudavar kəndinə gələrək Mahmud qalasında olmuş, kənddə bir neçə kurqan yeri müəyyən etmiş və Mahmudavarın arxeoloji xəritəsini tərtib etmişlər.

Tarix üzrə fəlsəfə doktoru, arxeoloq Abuzər Ələkbərov Mahmud qalasını belə səciyyələndirmişdir: "Mahmudavar orta əsrlərdə şəhər olmuşdur. Orta əsr şəhər qalaları üçün səciyyəvi olan bütün əlamətlər bu qalada öz əksini tapmışdır. Qala divarları burada müdafiə olunmaq məqsədilə xüsusi xəndəklə əhatə olunmuşdur. Qala daxilində və ətrafında aşkar edilən orta əsrlərə aid müxtəlif keramika nümunələri

# MAHMUD QALASI

göstərir ki, qala şəhərin bir hissəsi olmuş və onun mərkəzində yerləşmişdir. Çox güman ki, qala buranın bünövrəsini qoymuş Mahmud xana məxsus imiş. Şəhərin xüsusi qəbiristanlığı olması faktı da fikrimizi təsdiq edə bilər. Şəhər sonralar tənəzzülə uğrasa da, qalıqları indiyədək qalır" (Musarza Mirzəyev. Mənim Masallım. B., 1991, səh. 50).

Mahmud qalasından ayrı-ayrı vaxtlarda çoxlu pul və silah nümunələri, bəzək şeyləri, əmək alətləri, dulusçuluq məmulatları tapılması buranın mühüm yaşayış məntəqəsi olmasını bir daha təsdiq edir. Mahmud qalasından bu gün əsər-əlamət qalmamışdır. Qala dağıdılmış, onun xarabalıqları həyətyanı torpaq sahəsi kimi camaata paylanmış, burada yaşayış evləri tikilmişdir. Mahmud qalası ərazisinin sakinlərə həyətyanı torpaq sahəsi kimi paylanması tariximizin müəyyən bir dövrünü özündə yaşadan daha bir abidəmizin məhvinə gətirib çıxarmışdır. Hazırda Mahmud qalası mövcud olmasa da, Mahmudavar kəndində qala ilə bağlı "Ğələ" (Qala) mikrotoponimi vardır. Yəni kənd sakinləri qala daxilindəki əraziyə "Ğələ" (Qala), burada yaşayanlara isə "ğələvijğələvoj" (qalalı) deyirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 saylı qərarına əsasən Mahmud qalası (xarabalıqları) 4901 invertar sayı ilə orta əsrlərə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına qalmışdır.

***İldırım ŞÜKÜRZADƏ,***
***Lənkəran rayonunun***
***Havzava kənd***
***tam orta məktəbinin müəllimi***